

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 24 (21.176)

5 fevral 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakının Xətai rayonu ərazisində yeni yaradılan fəvvarələr və şəlalələr kompleksi ilə tanış olub.

Görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Uzunluğu 150 metr olan kompleks ən müasir tələblər səviyyəsində qurulub. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yaradılıb. Müxtəlifrəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək.

Kompleksdə müasir işıqlandırma sistemi qurulub, yeni yaşıllıq zolağı salınıb, abadlıq işləri aparılıb, əraziyə keyfiyyətli plitələr döşənib.

Fəvvarələr və şəlalələr kompleksində yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tövsiyələrini verdi.

* * *

Fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Xalq artisti, Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun 70 illik yubiley mərasimində iştirak etmək üçün Bakıya gələn bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüşüblər.



## Sənaye məhsulu istehsalında dinamik artıma nail olunub



*Enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, daxili imkanlar hesabına sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir. Muxtar respublikamızda bu sahədə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün görülmüş işlər ötən 2014-cü ildə də öz bəhrəsini verib, sənaye məhsulu istehsalında dinamik artıma nail olunub.*

Hazırda muxtar respublikada istehsal olunan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Belə ki, 2014-cü ildə muxtar respublikada 891 milyon 486 min manat həcmində sənaye məhsulu istehsal edilib. Sənaye məhsulunun həcmindəki artım ötən illə müqayisədə 2,5 faiz olub.

Sənaye iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunmasında başlıca sahədir. Məhz bu, ötən 2014-cü ildə ölkəmizdə elan olunmuş “Sənaye ili”ndə qarşıda duran əsas vəzifələrdən olub ki, muxtar respublikamızda da bu sahədə mühüm layihələr həyata keçirilib. Hazırda Naxçıvan Muxtar Respublikasında 352 növdə məhsul istehsal olunur. Bunun 117 növü ərzaq, 235 növü qeyri-ərzaq məhsullarıdır. Naxçıvanda istehsal edilən sənaye məhsulları arasında plastik qapaqdan avtomobilə qədər çoxşaxəliliyə nail olunub. Bunu regionda yaradılan sənaye müəssisələrinin sayında da görmək mümkündür. Belə ki, 2003-cü illə müqayisədə regionda sənaye müəssisələrinin sayı 7 dəfə artıb. Sənaye məhsulunun artırılmasına yönəlmiş kreditləşmənin də burada mühüm əhəmiyyəti vardır. Belə ki, 2014-cü ildə sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 5 milyon 674 min 300 manat həcmində kredit verilib. Ümumilikdə isə 2014-cü ildə muxtar respublikada dövlət dəstəyi ilə 47 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilib, 313 milyon 481 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac olunub.

## Şahbuz rayonunun quruculuq xəritəsi genişlənir

***Ötən il Şahbuz rayonunda həyata keçirilən quruculuq tədbirləri bölgənin füsunkar gözəlliyinə əlavə çalarlar qatıb. Rayon mərkəzində rabitə evinin əsaslı təmiri, şəhər mərkəzinin tikintisi başa çatdırılıb.***

Gömür kəndində kompleks quruculuq tədbirləri çərçivəsində kənd və xidmət mərkəzləri inşa olunub, feldşer-mama məntəqəsi üçün bina tikilib. Həmin yaşayış məntəqəsində 110 şagird yerlik tam orta məktəb binası yenidən qurulub. Şahbuz şəhərində bir yaşayış binasının təmiri başa çatdırılıb, 1 yaşayış binasında bu tədbir davam etdirilib. Ahıllar evinin əsaslı təmiri, 216 şagird yerlik 2 nömrəli tam orta məktəb binasının tikintisi, Sələsüz və Nursu kəndlərinin hər birində 234 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması da ötən ilin quruculuq tədbirlərindəndir.

Ən ucqar dağ kəndi olan Nursu kəndində həm də xidmət mərkəzi və həkim ambulatoriyası binaları tikilib. Xalq şairi Məmməd Arazın ev-muzeyi istifadəyə verilib.

“Rayon mərkəzi və ətraf kəndlərdə su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulması” layihəsi çərçivəsində 16,18 kilometr içməli su xətti, 1,9 kilometr kanalizasiya şəbəkəsi çəkilib, 276 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 30 metr kaptaj tikilib.

Hazırda Şahbuz şəhərində uşaq bağçası binasının tikintisi davam etdirilir.

## Cərimələrin POS-terminallar vasitəsilə ödənilməsi təmin edilib

*Ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsinin müayinə mərkəzində və Şərur Rayonlararası Müayinə Mərkəzində 17 min 606 nəqliyyat vasitəsi texniki baxışdan keçirilib.*

Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin rəisi, polis mayoru Aydın Ağayevin dediyinə görə, daimi qeydiyyatda olan hüquqi və fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin qanunvericiliyə uyğun olaraq texniki baxışdan keçirilməsi diqqət mərkəzində saxlanılıb.

Dövlət yol polisi əməkdaşları tərəfindən 18 min 374 yol hərəkəti qaydaları xətası aşkar edilib və bu xətaları törədənlər barədə inzibati qaydada tədbir görülüb.

Yol hərəkəti qaydalarını pozan sürücülər barəsində qəbul edilmiş qərarlar üzrə cərimələrin məbləği 728 min 490 manat olub. Sözügedən idarədə və idarənin balansında olan 5 ədəd xidməti avtomobildə POS-terminallar quraşdırılıb, cərimələrin POS-terminallar vasitəsilə ödənilməsinə əlverişli şərait yaradılıb. Cərimələrin 282 min 971 manatı POS-terminallar vasitəsilə ödənilib.

İdarə rəisi onu da bildirdi ki, ötən il Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən 3053 ədəd qeydiyyat nişanı, 7199 ədəd qeydiyyat şəhadətnaməsi, 4873 ədəd sürücülük vəsiqəsi verilib. 1190 ədəd nəqliyyat vasitəsi ilkin, 5157 ədəd nəqliyyat vasitəsi isə təkrar qeydiyyata alınıb. 2347 nəqliyyat vasitəsi qeydiyyatdan çıxarılıb, 1677 avtomobil çıxdaş olunub.

**Xəbərlər şöbəsi**

***Naxçıvan Muxtar Respublikasında elektron xidmətlər sahəsində daha bir yeniliyə imza atılıb. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində daşınmaz əmlakın məlumat bazası yaradılaraq milli qeydiyyat sistemi proqramı vasitəsilə avtomatlaşdırılmış şəkildə lokal idarəetmə təşkil olunub və inkişaf etdirilməkdədir.***

## Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində yeni elektron xidmət yaradılıb

### *Artıq onlayn müraciətlə də daşınmaz əmlakın qeydiyyatının həyata keçirilməsi mümkündür*

Bu, o deməkdir ki, müvafiq portalın istifadəyə verilməsi sayəsində bu gün vətəndaşlar əlavə vaxt sərf etmədən birbaşa olduqları yerdən daşınmaz əmlaklarını qeydiyyatdan keçirmək üçün internet vasitəsilə onlayn müraciət etməklə plastik kartlarla ödəniş edə bilirlər. Bundan başqa, daşınmaz əmlakın qeydiyyatı sahəsində sosial məmnunluğun, vətəndaşlara göstərilən xidmətlərdə rahatlığın təmin olunması və sosial amillərin gücləndirilməsi istiqamətində atılan addımlardan biri də mobil ofisin yaradılmasıdır.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən verilən məlumata görə, xüsusi imtiyazlı təbəqədən olan insanlara (əlil, ahıl, sağlamlıq imkanları məhdud insanlar, o cümlədən yaşayış yeri uzaqda yerləşən, müxtəlif səbəblərdən hərəkət etmək çətinliyi olan vətəndaşlar) daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı və digər xidmətlərin yerində göstərilməsi məqsədilə “NAZ-Lifan-6401” markalı minik-vaqon avtomobili mobil ofis səviyyəsində dizayn edilib. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən səyyar xidmətlərin göstərilməsi üçün tətbiq edilən bu yenilik qeydiyyat xidmətlərinin vətəndaşlar üçün əlçatanlığını təmin etməklə yanaşı, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı sahəsində səmərəliliyinin artırılmasına xidmət edir.



Vətəndaşların daha rahat və vaxt itkisinə yol vermədən qanunla nəzərdə tutulmuş ödəmələrini elektron formada aparmaları üçün bu xidmət onlayn elektron ödəmə sisteminə (Golden Pay) inteqrasiya edilib. Yaradılan sistem eyni zamanda əhalinin reyestrindən istifadə etməyə imkan verir ki, bu da vətəndaşların şəxsiyyətinin müəyyənləşdirilməsində bir sıra çətinliklərin aradan qaldırılmasına şərait yaradır. Belə ki, əmlaklar üzərində etibar edilməmiş vətəndaşlar tərəfindən əməliyyat aparılmasının qarşısı alınır. Həmçinin əgər əvvəllər vətəndaşlar şəxsiyyət vəsiqələri tələb olunduqda onu özləri ilə götürmədiyi halda, təkrar xidmətə gəlməyə məcbur olurdularsa, evdən onlayn müraciətlər zamanı vətəndaş bu problemlərlə qarşılaşmır. Bununla yanaşı, xidmətdə POS-terminal quraşdırılıb ki, bu da vətəndaşlara plastik kartlardan istifadə etməklə ödəniş aparmağa imkan verir.

Elektron xidmətlərdən istifadə etmək üçün vətəndaşlar və ya hüquqi şəxslər Naxçıvan Muxtar Respublikasının elektron portalına (***e-hokumet.nmr.az***) daxil olaraq “Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti” sözünü seçməli və ya ***dedrx.nakhchivan.az*** saytına qoşulub “elektron xidmətlər portalı” yazılmış bölməyə daxil olduqdan sonra müvafiq xidməti seçərək elektron xidmətlər portalına qoşula bilərlər. Orada “Dövlət rüsumunu ödə” hissəsinə daxil olduqda qanunla nəzərdə tutulmuş rüsum ödənilməsi ilə bağlı məlumat əks olunur. Məlumatda göstərilənlərlə razılaşdıqda “Bu ərizənin göndərilməsinə razıyam” sözünün qarşısına işarə qoyduqdan sonra “ödə” düyməsi aktivləşir. “Ödə” düyməsini vurduqda “Golden Pay” ödəmə sistemi açılır və göstərilən məlumatları doldurduqdan sonra vətəndaşın plastik kartından müvafiq məbləğ çıxılır. Bundan sonra istifadəçilər müraciət olunan xidmətə xidmət haqqı tələb olunursa, “Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciət üzrə xidmət haqqının öyrənilməsi” bölməsinə daxil olaraq müraciətin nömrəsini yazmaqla xidmət haqqının məbləğini öyrəndikdən sonra “Xidmət haqqının ödənilməsi” bölməsindən müvafiq ödənişi edə bilərlər.

Qeyd edək ki, hazırda 21 elektron xidmət vətəndaşların və hüquqi şəxslərin istifadəsindədir və təqdim edilən xidmətlərin sayının artırılması istiqamətində işlər davam etdirilir.

Xatırladaq ki, bu tədbirlər “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanından irəli gələn vəzifə və tapşırıqların icrası istiqamətində həyata keçirilib. Yeni xidmətin yaradılması fəaliyyətdə səmərəliliyin artırılması, ehtimal olunan bürokratik əngəllərin aradan qaldırılması, əhalinin rahatlığının təmin edilməsi baxımından əhəmiyyətlidir.

**Səbuhi HƏSƏNOV**

İcmal

# Ötən ay da yeni sosial obyektlər istifadəyə verilib, mühüm nailiyyətlər qazanılıb

***Tarixinin heç bir dövründə Naxçıvanın bugünkü kimi yüksək səviyyədə infrastrukturu olmayıb. Muxtar respublikanın var olduğu tarixi dövr ərzində ilk dəfədir ki, ən ucqar dağ kəndlərinə belə, təbii qaz, internet xətləri çəkilib, yollar abadlaşıb, körpülər salınıb, inşa olunan kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, məktəb binaları həmin kəndləri, sözün həqiqi mənasında, şəhərləşən kəndlərə çevirib. 2014-cü ildə də quruculuq tədbirlərinin əhatə dairəsi xeyli genişlənib, 30-a yaxın kənd yaşayış məntəqəsində müxtəliftəyinatlı obyektlər tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ardıcıl şəkildə aparılan quruculuq işləri kəndlərdə infrastrukturun yenilənməsinə, əhalinin rahatlığının təmin olunmasına səbəb olub.***



Sevindirici haldır ki, 2015-ci ilin ilk ayında – yanvar ayında da bu istiqamətdə əsaslı işlər görülüb. Ötən ayın əvvəlində muxtar respublikanın daha bir kəndi abadlaşan yaşayış məntəqələrinin sırasına qoşulub. Belə ki, yanvarın 6-da Şərur rayonunun Püsyan kəndində yeni sosial obyektlər istifadəyə verilib.

Yeni məktəb binasının, həmçinin müasir standartlar səviyyəsində həkim ambulatoriyasının, kənd və xidmət mərkəzlərinin inşa olunması püsyanlıların sevincinə səbəb olub. Bu, təbiidir. Çünki həmin obyektlərin hər biri ayrı-ayrılıqda kənd sakinləri üçün çox böyük əhəmiyyətə malikdir. Ancaq gəlin qəbul edək ki, tikililər arasında ən əhəmiyyətlisi məktəb binasıdır. Ona görə ki, təhsilə göstərilən diqqət həm bu günümüzə, həm də gələcəyimizə göstərilən diqqətdir. Təhsil elə strateji bir sahədir ki, bununla, bütövlükdə, milli yüksəlişə nail olmaq mümkündür. Püsyanda istifadəyə verilən yeni məktəb binası da həyata keçirilən mühüm strateji xəttin tərkib hissəsidir. Dörd mərtəbədən ibarət olan məktəb binasında yaradılan şərait təhsilli və sağlam, vətənpərvər gənc nəslin yetişdirilməsinə geniş imkanlar açır.

Püsyan kənd tam orta məktəbinin kollektivi ilə görüşündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Bu gün ölkəmizdə məktəb işi ümumxalq, ümumdövlət işinə çevrilmişdir. Hər bir kənddə, hər bir yaşayış məntəqəsində yeni məktəb binaları tikilərək istifadəyə verilir. Çünki məktəb tikintisi ölkəmizin gələcəyinə xidmət edir, məktəblərdə ölkəmizin gələcək təminatçıları olan gənc nəsil yetişir. Bu amili yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, “Məktəb təhsil verməklə yanaşı, eyni zamanda gəncləri müstəqil həyata hazırlayan tərbiyə ocağıdır”.***

Kompleks quruculuq tədbirləri çərçivəsində Naxçıvan-Sədərək magistral avtomobil yolundan Püsyan kəndinədək, eləcə də 5,4 kilometr kənddaxili yola asfalt örtük salınması, 10 kilometr məsafədə məhəllələrarası yolların təmir olunması, 478 metr suvarma kanalının inşası kənd sakinlərini bir sıra problemlərdən birdəfəlik xilas edib.

Həyata keçirilən uğurlu inkişaf strategiyası, aparılan geniş tikinti-quruculuq işləri muxtar respublikanın şəhərlərini, kəndlərini tamamilə əhatə edib. Bu səbəbdən paytaxt Naxçıvan şəhəri ilə yanaşı, şəhərin ətraf qəsəbə və kəndləri də yeniləşmə prosesinə qoşulub. Naxçıvan şəhərinin inzibati ərazisinə daxil olan Qaraçuq kəndi ötən ay yekunlaşan kompleks tikinti işlərindən sonra müasir qəsəbə görkəmi alıb.

Qaraçuqda yol şəbəkəsi müasir standartlara uyğunlaşdırılıb, 5,5 kilometr kənddaxili yola asfalt örtük salınıb, hərəkətin rahatlığı və təhlükəsizliyi təmin olunub. Yolun uzunmüddətli istismarı məqsədilə zəruri tədbirlər görülüb, 51 su keçidi və 1036 metrlik beton kanal çəkilib. Yanvarın 14-də Qaraçuq kənd avtomobil yolunun açılışı olub. Bu, kəndin infrastrukturunun möhkəmlənməsi, insanların rahatlığının təmini üçün əhəmiyyətlidir.

Yol həm də mədəniyyət deməkdir. Ancaq bir həqiqət də var ki, infrastrukturun yaradılması, binaların tikilməsi təhsilin, mədəniyyətin inkişafı üçün kifayət etmir. Buna nail olmaq üçün yeni nəslin bilik səviyyəsinin artırılması, mədəniyyətin, incəsənətin ən mühüm sahələrindən biri olan musiqi təhsilinin lazımi səviyyədə aparılması gələcək inkişafımızın müasir dövrün tələblərinə uyğun şəkildə qurulmasında böyük rol oynayacaqdır. Yanvarın 14-də Qaraçuq kənd Uşaq musiqi məktəbinin istifadəyə verilməsində əsas məqsəd də regional mədəniyyətin inkişafına töhfə verməkdir.

Qaraçuqda Naxçıvan şəhər 9 nömrəli tam orta məktəb binasının, yeni kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının istifadəyə verilməsi yaşayış məntəqəsinin şəhərləşən kəndlərimizin sırasına qoşulması deməkdir. Tikinti-quruculuq tədbirləri zamanı kənddə bir sıra abadlıq işləri də görülüb, rabitə və enerji təchizatı yaxşılaşdırılıb.

1990-cı ilin yanvar ayında Azərbaycanın qəhrəmanlıq tarixinə qanla yazılmış dəhşətli bir hadisə – 20 Yanvar faciəsi baş verib. Bu gün muxtar respublikada 1990-cı ilin 20 yanvar gecəsi və bədnam qonşularımızın hücumlarını dəf edərkən şəhid olmuş Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı olaraq, Naxçıvan şəhərindəki Şəhidlər xiyabanının yaxınlığında xüsusi memarlıq üslubunda yeni bina – Xatirə Muzeyi inşa olunub.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yeni tikilmiş Xatirə Muzeyinə gəlib, burada yaradılan şəraitlə maraqlanıb.

Ali Məclisin Sədri Xatirə Muzeyinin məktəb-muzey şəbəkəsinə qoşulması və interaktiv dərslərin keçilməsi, muzey fondunun qəhrəmanlıq tariximizdən bəhs edən kitablarla zənginləşdirilməsi barədə tapşırıqlar verib.

Qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının ən ucqar kəndlərində də yeni sosial obyektlər istifadəyə verilir, insanların yaşayış şəraitinin yaxşılaşdırılması üçün bütün işlər görülür. Zirvəsi qarla örtülmüş hündür dağ silsilələrinin ətəyində yerləşən Culfa rayonunun Şurud kəndi də bu gün artıq müasir kənd görkəmi alıb. Yanvarın 22-də burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Şurud kənd tam orta məktəbi istifadəyə verilib, kənd mərkəzinin açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şurud kəndində aparılan abadlıq-quruculuq işləri münasibətilə sakinləri təbrik edərək deyib: ***“Muxtar respublikada dağ və sərhəd kəndlərinin abadlaşması, yenidən qurulması diqqət mərkəzində saxlanılır, kompleks tikinti-quruculuq işləri aparılır. Həyata keçirilən bu tədbirlər sakinlərin rahat yaşayışının təmin olunmasına xidmət edir. Kəndin abadlaşması və infrastrukturun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq qaz xətti çəkilmiş, elektrik enerjisinin fasiləsiz verilişi təmin olunmuşdur. Dövlətin yaratdığı şəraitin nəticəsidir ki, ucqar dağ kəndi olmasına baxmayaraq, bu gün Şuruda fiber-optik kabel çəkilmiş, yeni ATS quraşdırılmış, sakinlərin internetə çıxış imkanı yaradılmışdır”.***

Ucqar dağ kəndlərində bu cür şəraitin yaradılmasına ancaq inkişaf etmiş dövlətlər nail ola biliblər. Həmin dövlətlərin isə onilliklərlə müstəqillik tarixi vardır. Apardığımız ümumi araşdırmalar nəticəsində tam əmin olduq ki, son 20 ildə Naxçıvanda görülən işlər bir sıra Avropa ölkələrində 100 ildə görülüb.

Aparılan məqsədyönlü siyasət nəticəsində əldə olunmuş sosial-iqtisadi inkişafla yanaşı, muxtar respublikada həm də insan amilinə xüsusi diqqət yetirildiyini qeyd etməliyik. Bu gün muxtar respublikada insanların rahat yaşayışı təmin olunub. Əhalinin rahat yaşayışının təmin olunması, xüsusilə insanların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində bu gün də ardıcıl tədbirlər görülür. Günü-gündən öz görkəmini dəyişən paytaxt Naxçıvan şəhərində də bu məsələ diqqət mərkəzində saxlanılır. Yanvarın 23-də Naxçıvan şəhərinin Kazım Talıblı küçəsində 20 nömrəli yaşayış binası istifadəyə verilib.

Bu yaşayış binasında mənzil sahibi olanlar şəhərin Kalbalıxan və Cəlil Məmmədquluzadə küçələrində fərdi evləri plana düşən ailələrdir. Sakinlər onlar üçün yaradılan şəraitdən razılıqlarını ifadə edirlər.

İnsan əməyinin, zəhmətinin düzgün qiymətləndirilməsi bizim milli adət-ənənələrimizin, həm də dövlət siyasətimizin tərkib hissəsidir. Muxtar respublikada da müxtəlif sahələrdə ölkəmizin inkişafı, tərəqqisi yolunda daha çox çalışan və fəaliyyətləri ilə fərqlənən insanların əməyi dövlətimiz tərəfindən qiymətləndirilir. Çünki vəzifələrini layiqincə yerinə yetirən, fədakarlıq göstərən belə insanlar daim öz fəaliyyətləri ilə cəmiyyətimizin digər üzvlərinə nümunə olurlar.

Ötən ayın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının “Dövlət qulluğunda fərqlənməyə görə” və “Hərbi xidmətlərə görə” medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının, 2013-2014-cü tədris ilində keçirilmiş “Ən yaxşı ümumtəhsil məktəbi” və “Ən yaxşı müəllim” müsabiqəsinin qaliblərinə mükafatların təqdimat mərasimi keçirilib.

Bütün bunları nəzərə alaraq əminliklə qeyd edə bilərik ki, 2015-ci ilin ilk ayı da muxtar respublika üçün uğurlu nəticələrlə yadda qaldı. İstifadəyə verilən yeni sosial obyektlərdə 20 nəfərədək insanın işlə təmin olunması isə məşğulluğun artırılması istiqamətində atılan addımların davamlı xarakter aldığını göstərir. Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirildiyi muxtar respublikada Ali Məclis Sədrinin diqqət və qayğısı, vətənpərvər, sağlam düşüncəli, əqidəli, işgüzar insanların birliyi gələcəkdə də qarşıda duran hər bir vəzifənin vaxtında, yüksək keyfiyyətlə icrasını təmin edəcək.

*Bu gün qürurla deyə bilərik ki, muxtar respublikanın yüksək inkişafı təmin olunub. Ancaq qarşıda bizi yeni-yeni işlər gözləyir. Bu gün qarşıda duran əsas vəzifə qazandığımız uğurlara yenilərini əlavə etməklə, qurulanları, yaradılanları qoruyub saxlamaqla, dövlətimizin göstərdiyi diqqət və qayğıya layiqli bir vətəndaş kimi öz əməli işimizlə cavab verməklə, Vətənimizə, xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqətli gənclik yetişdirməklə Heydər Əliyev siyasi məktəbinin tələblərini yerinə yetirməkdir. Bu gün bütün bunlar intibah dövrünü yaşayan, yüksələn Naxçıvanın reallıqlarıdır.*

**Rauf ƏLİYEV**

## Proqnoz tapşırığa artıqlaması ilə əməl olunub

Ötən il sahibkarlıq fəaliyyəti ilə məşğul olan 35 hüquqi və 294 fiziki şəxs olmaqla, ümumilikdə, 329 vergi ödəyicisi qeydiyyata alınıb. Ayrı-ayrı sahibkarların müraciətləri qanunamüvafiq qaydada cavablandırılıb, bəyannamələrin düzgün tərtib edilməsinə köməklik edilib, elektron bəyannamə xidməti göstərilib. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan 235 vergi ödəyicisi ilə “Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında” müqavilə bağlanaraq onlara parol-şifrələr verilib. Parol-şifrə verilmiş vergi ödəyicilərinin hamısının bəyannamələri elektron poçt vasitəsilə Naxçıvan Şəhər Vergilər İdarəsinə təqdim edilib.

Vergilər İdarəsindən qəzetimizə verilən məlumatda bildirilir ki, ötən il 710 hüquqi və fiziki şəxsə bank hesabı açılıb ki, bu da ödəmələrin köçürmə yolu ilə aparılmasına əlverişli şərait yaradıb.

Vergi ödəyicilərinin məlumatlandırılması ilə yanaşı, nəzarət işinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılması, proqnoz tapşırıqların bütün növ tədiyələr üzrə yerinə yetirilməsi, qalıqlara yol verilməməsi, hesablanmış vəsaitin büdcəyə ödənilməsi, vergi orqanlarında qeydiyyatda durmadan fəaliyyət göstərilməsi, işəgötürən və işçilər arasında əmək müqavilələrinin bağlanmaması və vergidənyayınma hallarının qarşısının alınması məsələləri də diqqət mərkəzində saxlanılıb. Belə ki, ötən il Naxçıvan şəhəri ərazisində fiziki və hüquqi şəxslərin fəaliyyət göstərdiyi 47 obyektdə nəzarət-kassa aparatı quraşdırılıb. Bəhs olunan dövrdə idarəyə təqdim olunmuş bəyannamələrin kameral yoxlanılmasına diqqət daha da artırılıb. Eyni zamanda xüsusi razılıq (lisenziya) olmadan 6, xarici valyutanı ödəniş vasitəsi kimi qəbul edən 15, əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət etməyən 12, aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış 3, vergi orqanlarında uçotda durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1 vergi ödəyicisinə maliyyə sanksiyası və inzibati cərimə tətbiq edilib, həmin vəsaitin tamamilə büdcəyə ödənilməsi təmin olunub. Həmçinin işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi qaydalarına riayət olunması ilə əlaqədar reydlər davam etdirilib, 226 nəfərlə əmək müqavilələrinin bağlanmasına köməklik göstərilib. Bağlanmış əmək müqavilələrində işçilərə ödənilən aylıq əməkhaqqının məbləği 180 manatdan az olmayıb.

Qeyd edək ki, görülən tədbirlər nəticəsində ötən il bank orqanları tərəfindən Naxçıvan şəhərinin ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarında qoyulmuş 327 ədəd POS-terminalın vergi orqanında qeydiyyatdan keçirilməsi və bu istiqamətdə işlərin davam etdirilməsi də verilən məlumatda öz əksini tapıb.

Məlumatda o da bildirilib ki, vergilər və digər icbari ödənişlər üzrə proqnoz tapşırıqda nəzərdə tutulmuş 11 milyon 170 min manata qarşı 12 milyon 301 min manat vəsait toplanılıb büdcəyə ödənilib. Bu da illik tapşırığın 110,1 faiz yerinə yetirilməsi deməkdir.

**Kərəm HƏSƏNOV**

*Muxtar respublikada mövcud yolların beynəlxalq standartlara uyğun olaraq yenidən qurulması müasir ictimai nəqliyyat növlərinə ehtiyacı daha da artırıb. Odur ki, şəhərdaxili sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələri sürətlə yeniləşdirilir.*

## Bu il muxtar respublikaya yeni iritutumlu avtobuslar gətiriləcək

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Naxçıvan şəhərində sərnişindaşıma müasir, iritutumlu avtobuslarla həyata keçirilir. Son illər Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazası xeyli möhkəmləndirilib, 2 ədəd “Mersedes-Benz Traveqo” markalı, 37 ədəd “King Long” markalı, 8 ədəd “Liaz” markalı iritutumlu avtobuslar alınaraq nəqliyyat dövriyyəsinə buraxılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a əsasən, şəhərdaxili nəqliyyatdakı avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması, Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması və ictimai nəqliyyat vasitələri üçün yeni dayanacaqların quraşdırılması işləri davam etdirilməkdədir. Adıçəkilən proqrama əsasən, sərnişinlərin sıxlığı nəzərə alınaraq muxtar respublikamıza yeni iritutumlu avtobuslar alınıb gətiriləcək.

**Xəbərlər şöbəsi**

Müasirləşən kəndlərimiz

# Böyük şəxsiyyətlərin vətəni: Şahtaxtı

## Bu kənd indi müasir qəsəbə görkəmindədir

***Ölkəmizin elmi-mədəni, ictimai-siyasi həyatında mühüm rol oynamış böyük şəxsiyyətlərin vətəni kimi tanınan Kəngərli rayonunun Şahtaxtı kəndi muxtar diyarımızın ən qədim yurd yerlərindən biridir. Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri bu yaşayış məntəqəsini də əhatə edib. Ayrı-ayrı vaxtlarda bu kənddə yeni obyektlər tikilərək istifadəyə verilib.***

***Bu gün Şahtaxtı qəsəbə görkəmindədir. Müasirliyə qovuşan bu yurd yerinin bu günü haqqında sadə bir kənd ailəsinin üzvləri ilə həmsöhbət olduq. Bir-iki saatlıq söhbət bizdə xoş təəssüratlar yaratdı. Gördük ki, qonağı olduğumuz ailə üzvləri dövlətimizin bu gün həyata keçirdiyi siyasəti ürəkdən dəstəkləyirlər.***



***Zəkiyyə nənənin söhbəti***

Kənd sakinlərinin mehribanlıqla “nənə” deyə müraciət etdikləri Zəkiyyə xanım ömrünün səkkizinci onilliyini başa vurmaqdadır. Gözünü dünyaya bu kənddə açıb. Burada doğulub boya-başa çatıb. Bütün ömrünü zəhmətdə keçirib. Çoxları üçün kişi peşəsi sayılan dəmiryolçu peşəsində çalışıb. Bu gün də gümrahdır. Yaddaşına da söz ola bilməz. Onunla yaşadığı evdə görüşdük. Oğlu Azadi Rzayev mühasibdir. Gəlini Çiçək Əlizadə kənd tam orta məktəbində müəllim işləyir. Nəvələri Çilənay və Nilufər Rzayevalar Naxçıvan Dövlət Universitetində, adını daşıdığı Zəkiyyə isə kənd tam orta məktəbinin IX sinfində təhsil alırlar. Çay süfrəsi arxasında şirin bir söhbət başlayır. Söhbətə elə Zəkiyyə xanım özü körpü salır:

– Çox çətin günlərimiz olub indiki dövrə çatanacan. Çörəksiz də, işıqsız da qalmışıq. Qışın şaxtalı günlərində evin küncündə qurulmuş peçə odun tapmadığımız vaxtlarımız da olub. Bir qarın ac, bir qarın tox günlər də yaşamışıq. Lakin dözmüşük. Bu gün dönüb dünənə baxanda gözlərimə inanmıram. Hərdən kənd içinə çıxıram. Gördüklərimdən, vallah, heyrətə gəlirəm. Nəvələrimə deyəndə ki, a bala, Şahtaxtı neçə illər bundan irəli gördüyüm kənd deyil, – inanmırlar. Düzü, onları qınamıram da. Çünki onlar kəndin çətin günlərini xatırlamırlar .

Zəkiyyə nənə evin pəncərəsindən görünən böyük ticarət mərkəzini göstərir:

– Bir vaxtlar belə dükanı böyük-böyük şəhərlərdə tikərdilər. İndi ən ucqar kəndlərdə də tikirlər. Özü də tək dükan deyil, bərbərxanası da var, qızgəlinlər üçün ayrıca otağı da. Ondan başqa da 2 dükanımız var. Daha rayon mərkəzinə getməyə ehtiyacımız yoxdur. Şükür bu günümüzə, oğul. Gərək bu günlərin qədrini biləк. Qeydinə qalaq o tikilənlərin. Onları tikdirənlərin zəhmətini unutmayaq. Belə işlər görmək böyük xeyirxahlıqdır və savab əməldir.

Bu anda Zəkiyyə nənənin gəlini Çiçək müəllimə otağa daxil olur. Xoş gəldin edir. Gətirdiyi çayı, mürəbbələri stolun üstünə düzür. Qayınanasından söhbəti davam etdirmək üçün icazə istəyir. Razılıq alıb kənddə yeni binada fəaliyyət göstərən məktəb haqqında danışır:

– Şahtaxtı kəndində tarixən təhsilə güclü maraq olub. Kənd məktəbini bitirən məzunlar arasında çoxlu alim yetişib. Görkəmli akademik, oftalmoloq-alim Zərifə xanım Əliyevanın adını daşıyan bu məktəb 5 akademikin, onlarla professor və dosentin orta təhsil aldıqları ünvandır. Məktəbimizin köhnə binada yerləşməsi təhsilin səviyyəsinə mənfi təsir göstərirdi. Bu nəzərə alınaraq 2005-ci ildə kənddə yeni məktəb binası tikildi. Bəzən köhnə məktəbimizlə indiki məktəbi göz önünə gətirirəm. İndiki məktəb binası, burada yaradılan şəraitlə köhnə məktəb arasında müqayisəyəgəlməz fərqlər var. 594 şagird üçün nəzərdə tutulmuş binada müəllimlərimiz yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Məktəbin görkəmli alimin adını daşıması, 2007-ci ildə ölkə başçısı cənab İlham Əliyevin bu təhsil ocağında olması, müəllimlərlə səmimi söhbət etməsi, tövsiyə və tapşırıqlarını verməsi kollektivimizin məsuliyyət hissini daha da artırıb.

Çiçək müəllimə Şahtaxtinskilər nəslinə böyük hörmət və ehtiramın ifadəsi olan Şahtaxtinskilər Muzeyinin istifadəyə verilməsindən də qürurla danışır. Bu muzeyin şahtaxtılı məktəbli və gənclərin vətənpərvər ruhda formalaşdırılmasında mühüm rol oynadığını xüsusi vurğulayır.

Ailənin tələbə övladları Çilənay və Nilufərin də baxışlarında kənddə görülən işlərə minnətdarlıq və sevinc hissləri duyuruq. Onları da eşitmək istəyirik. Bacılar yüksək balla ali məktəblərə qəbul olunduqlarının başlıca səbəbini muxtar respublikada, konkret olaraq, elə Şahtaxtı məktəbində yaradılmış şəraitlə əlaqələndirirlər.

Zəkiyyə nənə deyir ki, nəvələrinin belə firavan bir zamanda yaşadıqlarını, təhsil aldıqlarını görəndə onun da yaşamaq, Şahtaxtının bundan da yaxşı günlərini görmək istəyi güclənir.

İstəyirik ki, ona bu arzusunun çin olacağına inamımızı bildirək, elə onda evin qapısı döyülür, içəri bir qadın daxil olur. Bizimlə lap köhnə tanış kimi hal-əhval tutur. Zəkiyyə nənənin, digər ailə üzvlərinin kefini soruşur. Zəkiyyə nənə bizi onunla tanış edir:

– Qonşumuz Ruqiyyədir.

Öyrənirik ki, Ruqiyyə İmranova ömrünün doqquzuncu onilliyini yaşayır. Tez-tez öz gənclik rəfiqəsi Zəkiyyə Rzayeva ilə görüşürlər, ötən günlərə qayıdırlar, keçmiş xatirələrini birgə xatırlayırlar. Gəlişimizin məqsədini biləп Ruqiyyə İmranova da doğma kəndi Şahtaxtıda görülən işlərdən razılığını bildirir:

– İrəli günlərdə bir balaca nasazlamışdım. Üz tutdum xəstəxanaya (2010-cu ilin dekabr ayında Şahtaxtı kəndində istifadəyə verilən həkim ambulatoriyası). Necə gözəl şərait yaradıblar. Həkimləri də sağ olsunlar. Buraya gələnlərə “can” deyib qəbul edir, “can” deyib yola salırlar. Adam xəstələndiyini də unudur.

Bu səmimi və mehriban ailə ilə sağollaşıb ayrılırıq. Təəssüratlarını uzun müddət yaşayacağım söhbətə

***Kənd mərkəzində***

əlavə çalarlar qatılır.

Şahtaxtı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Səfər Qazıbəyov deyir ki, Şahtaxtının simasına füsunkar görkəm gətirən belə kompleks quruculuq işləri muxtar respublikada kəndlə şəhər arasında olan fərqin aradan qaldırılması istiqamətində görülən işlərin nəticəsidir. Bu gün Şahtaxtı gömrük-keçid məntəqəsindən keçərək Naxçıvana gələn qonaqlar da bu kənd yaşayış məntəqəsində həyata keçirilən quruculuq tədbirlərini görür, diyarımızda dinamik xarakter almış inkişaf və tərəqqinin şahidi olur, onlarda muxtar respublikamız haqqında yüksək və xoş təəssüratlar yaranır.

İcra nümayəndəsi bildirir ki, “Kənd mərkəzi” adlanan sosial obyektlər muxtar respublikada mahiyyət və məzmunca yeni layihələrdir. Son illər regionumuzun ən ucqar yaşayış məntəqələrində belə, kənd mərkəzləri inşa olunub istifadəyə verilir. Belə mərkəzlərdə kənddə fəaliyyət göstərən təşkilatlar yerləşdirilir. Bu da onların birlikdə fəaliyyətinə şərait yaradır. Bundan istifadə edən kənd adamlarının vaxtı da hədər yerə itmir. Şahtaxtı kəndində istifadəyə verilən kənd mərkəzi iki mərtəbədən ibarətdir. Burada kitabxana, polis sahə və baytarlıq məntəqələri, rabitə evi, ATS, icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kənd mədəniyyət evi fəaliyyət göstərir.

Onu da öyrənirik ki, uzunluğu 7 kilometr, eni 9 metr, asfalt örtüyünün qalınlığı isə 7 santimetr olan Qıvraq-Şahtaxtı yolu da yenidən qurulub.

***Şahtaxtılılar kəndin tarixi şəxsiyyətləri və tarixi ilə qürur duyurlar***

Kəndə gəlmişkən Şahtaxtının adını tarixi mənbələrdə yaşadan görkəmli şəxsiyyətləri, elə yaşayış məntəqəsinin öz tarixi və adının etimologiyası ilə maraqlanırıq. Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Zal Rüstəmov bu barədə məlumat verir:

– Görkəmli dövlət xadimi Əziz Əliyevin, dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyevanın bir vaxtlar yaşadıqları Şahtaxtı həm də Şahtaxtinskilər nəslinin ata-baba yurd yeridir. Bu gün kəndin tarixinə nəzər salsaq, zəngin materiallarla üz-üzə qalarıq. Jurnalist-tədqiqatçı Elxan Şükürlü “Şahtaxtı sirri: “Taxt” sahibi “Şah” kim olub?! İki məskunlaşma dövrü keçən bu kəndin maraq və heyrət dolu tarixi...” adlı yazısında bildirir ki, Şahtaxtının ibtidai insanların məskən saldığı ən qədim yaşayış məntəqələrindən biri olması ehtimalı hələ 1936-cı ildə arxeoloq Ə.Ələkbərov tərəfindən aparılan arxeoloji qazıntılar zamanı təsdiqini tapıb. Bu qazıntılar zamanı müəyyənləşdirilib ki, Şahtaxtı ərazisində eradan əvvəl VI-IV minilliklərdən başlayaraq intensiv yaşayış olan, eradan əvvəl II minilliklərdən isə ətrafı qala divarları ilə möhkəmləndirilmiş yaşayış məskəni olub. Kəndin adı ilə bağlı tədqiqatçının söylədiyi bəzi məqamlar da maraqlıdır. Belə ki, E.Şükürlü bu adın etimologiyasının bir neçə versiyasını üzə çıxarır. Bizcə, həmin versiyalar içərisində AMEA-nın müxbir üzvü Adil Bağırovun yerli əhali arasında yayılan bir versiya ilə üst-üstə düşən fikri daha dəqiqdir. Həmin versiya ondan ibarətdir ki, kəndə bu ad Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətainin 1501-ci ildə Təbrizdə taxta çıxmasından sonra verilib. Kəndin adının həm xalq, həm də elmi etimologiyasını verən Adil Bağırov bildirir ki, xalq etimologiyasına görə “Şahtaxtı” sözü “Şahın taxtı”, “Şahın oturduğu yer” mənasında işlənir. Elmi etimologiyada isə bu, “hündür, uca yer” anlamındadır. A.Bağırov öz fikrini belə əsaslandırır ki, Əlincəqala zirvəsində olan düzənliyə də Şahtaxtı deyilir.

* * *

Yuxarıda bildirdik ki, Şahtaxtı həm də Şahtaxtinskilər nəslinin ata-baba yurd yeridir. Bu nəsil Naxçıvanın, eləcə də Azərbaycanın adını tarixə yazıb, Şahtaxtı isə bu nəslin adını əbədiləşdirib. Budur, hər gün onlarla insanın üz tutduğu Şahtaxtinskilər Muzeyindəyik. Hər bir eksponat böyük bir nəslin xeyirxahlıq missiyasından soraq verir.

Muzeyin direktoru Ramiz Şükürovun dediyinə görə, buraya təkcə Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərindən deyil, paytaxt Bakı şəhərindən, xarici ölkələrdən də qonaqlar gəlir. Muzey yaradılarkən burada 285 eksponat olub. Hazırda eksponatların sayı 400-ə yaxındır.

***Şahtaxtıdan, Rzayevlər ailəsindən, digər kənd sakinlərindən aldığım təəssüratları olduğu kimi ifadə edə bilmədim. Buna görə oxucular məni qınamasınlar. Müasir Azərbaycan kəndinin nümunəsi olan bu qədim və şöhrəti ölkəmizə yayılan kəndin sakinlərinin söhbətləri, sözün həqiqi mənasında, məni də qürurlandırdı. Aldığım təəssüratları, insanların dövlətimizə minnətdarlıq dolu söhbətlərini çox istərdim ki, oxucular özləri yaşasınlar və eşitsinlər. Çünki bu kənd muxtar respublikadakı inkişaf və tərəqqimizin kiçik modelidir. Bunu görməyə dəyər.***

Muxtar MƏMMƏDOV

---

***Kənd təsərrüfatı insanın ilk məqsədyönlü fəaliyyət sahəsidir. İnsan ona lazım olan maddi nemətləri məhz torpaqdan əldə etmiş, əkib-becərmişdir. Mövcud olan əlverişli torpaq, iqlim, hava və su ehtiyatları kənd təsərrüfatının müxtəlif istiqamətlərdə inkişaf etdirməyə imkan verir. Muxtar respublikamızda aparılan tədbirlər nəticəsində kənd təsərrüfatının dayanıqlı inkişafı, onun çoxşaxəliliyinin təmin olunması, müxtəlif bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı təmin olunmuşdur.***

# Kənd təsərrüfatının sığortası bu sahəyə dəyən zərərə təminat verir

Kənd təsərrüfatının iqtisadiyyatda xüsusi rolu vardır. Kənd təsərrüfatı məhsulları olmasa, insanın çox vacib tələbatları ödənilməz, ərzaq təhlükəsizliyi kimi mühüm məsələ həll oluna bilməz. Odur ki, bu məsələnin həllində torpaqlardan səmərəli istifadə olunması, torpaq mülkiyyətçilərinə müxtəlif sahələrdə dəstək göstərilməsi, anbarlar yaradılması, satış yarmarkalarının təşkil olunması, maşın-mexanizm, gübrə təminatının yaxşılaşdırılması, məhsuldar sort və cinslərin yetişdirilməsi və xaricdən alınması, aqrar sahə üzrə mütəxəssislərin, aqronom və baytarların hazırlanması daim dövlətin diqqət mərkəzində saxlanılır. Bütün bunlarla yanaşı, kənd təsərrüfatının müxtəlif sahələrində, istər əkinçilik və bitkiçilik, istərsə də heyvandarlıq məhsulları istehsalında, habelə hazır məhsulun daşınması və anbarlanması zamanı yaranan qəfil, gözlənilməz hadisələr – yanğın, dolu, sel, daşqın, fırtına, şaxta və ildırım vurması, partlayış, elektrik cərəyanının təsiri, gün, yaxud istivurma, zəlzələ, uçqun, sudaboğulma, ilanların, yaxud digər zəhərli həşəratların sancması, dərəyədüşmə, nəqliyyat vasitəsinin altına düşmə və başqa zədələnmələr kənd təsərrüfatı ilə məşğul olan vətəndaşların və fermerlərin ilboyu çəkdiyi zəhməti yox edən zərərlər doğura bilər ki, bu da kənd təsərrüfatı sığortasını aktual edir.

Qəfil riskli hadisələr zamanı insanlara dəymiş zərərlərin əvəzinin ödənilməsinə yönəlmiş etibarlı sığorta sistemi iqtisadi inkişafın mühüm şərtlərindəndir. Çünki məhz sığorta yolu ilə adamların həyatı, sağlamlığı, əmlakı, mülki məsuliyyəti zəmanət altına alınır, sahibkarlıq fəaliyyəti zamanı risklərin ötürülməsi təmin olunur. Həyat sığortası və fərdi qəza sığortası, habelə insanların daşınmaz əmlakının, avtomobilinin, ev əşyasının, mülki məsuliyyətinin sığortalanması ilə bərabər, kənd təsərrüfatının da sığorta olunması baş verə biləcək müxtəlif qəfil hadisələr nəticəsində bu sahədə dəymiş zərərlərin əvəzinin ödənilməsinə təminat verir.

Kənd təsərrüfatı qəfil hadisələrə çox həssasdır. Burada baş verə biləcək və sığorta hadisələri hesab olunan təbii fəlakətlər və yaxud digər hadisələr kütləvi zərərlər törədir. Məsələn, yağan şiddətli dolu və ya qəfil fırtına ərazidəki bir neçə evə, yaxud digər tikililərə zərər vurursa, bundan fərqli olaraq eyni hadisələrdən yüz hektarlarla əkinlər, çox sayda bar ağacları və ya istixanalar zərər görər, qiymətli kənd təsərrüfatı məhsulları məhv olar, ya da kənd təsərrüfatı təyinatlı bina, maşın və avadanlıqlar yararsız hala düşə bilər. Digər bir tərəfdən, kənd təsərrüfatına zərər vuran bu kimi hadisələrin nəticələrini aradan qaldırmaq nisbətən uzun bir müddət tələb edir. Məsələn, güclü küləyin qoparıb dağıtdığı ev damı qısa bir müddətdə bərpa olunsa da, taxıl zəmisini, yaxud illərlə ərsəyə gələn meyvə ağaclarını dərhal yerinə qaytarmaq mümkün deyildir. Ona görə də onlara dəymiş zərərə görə verilən sığorta ödənişləri öz qazancını kənd təsərrüfatından əldə edən insanlar üçün çox vacibdir.

Hazırda mövcud qanunlara görə, kənd təsərrüfatı sahəsində obyektlər, bir qayda olaraq, təbii fəlakətlərlə yanaşı, xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, yoluxucu xəstəliklərdən, habelə üçüncü şəxsin qəsdən hərəkətlərindən də sığortalanır. Bu sığorta növündə kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri isə qəza hadisələrindən sığortalanır. Bunlardan əlavə, sığorta olunan digər kənd təsərrüfatı obyektləri isə kənd təsərrüfatı bitkilərinin məhsulları, iribuynuzlu və xırdabuynuzlu kənd təsərrüfatı heyvanları, quşçuluq təsərrüfatları, arı ailələri hesab olunurlar. Göründüyü kimi, aqrar sahədə sığortanın belə geniş məzmunda təşkilinin məqsədi kənd təsərrüfatı məhsulları istehsalçılarının mənafelərinin qorunması, onların fəaliyyətinin stimullaşdırılmasıdır.

Kənd təsərrüfatında məhsulun və əmlakın sığortası könüllü formada həyata keçirilir. Burada sığortanın şərtləri və aparılması qaydaları qanunvericiliyə uyğun olaraq, sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsində müəyyən edilir. Digər sığorta növlərində olduğu kimi, burada da sığorta tarifləri sığorta hadisələri nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyən edilir.

Göründüyü kimi, kənd təsərrüfatı sığortası geniş imkanlar vəd edən bir sahədir. Ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında bu məsələyə ciddi diqqət ayrılır. Bu həm də fermerlərin əmək fəaliyyətinin daha rahat olması üçün çox vacibdir. Fermerlərin əmlakı, məhsulu və aldıqları kreditlərin sığortalanması isə onların biznesinin uğuruna təminat verir.

**Hafiz HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin aparıcı mütəxəssisi***

*Naxçıvanın Azərbaycana bəxş etdiyi ilklər*

## Azərbaycan romantik mənzum dramaturgiyasının yaradıcısı və banisi

***Budəfəki yazımızda XIX-XX əsrin əvvəllərində Naxçıvan maarifçi-ədəbi mühitinin Azərbaycan ədəbiyyatına bəxş etdiyi ilklərdən bəhs etməyə çalışacağıq. Əvvəla qeyd edək ki, Azərbaycan ədəbiyyatında mövcud üç növdən biri olan dramatik növün üç əsas janrı vardır: dram, komediya, faciə.***

Dram əsəri dedikdə çox vaxt dramatik növdə yazılmış bütün əsərlər nəzərdə tutulsa da, ayrıca işlənən “dram” termini dramatik növün yalnız bir janrının adını bildirir. Dram komediya ilə faciə arasında orta mövqe tutur. Buna baxmayaraq, dram janrı dramatik növün digər iki janrından özünəməxsus xüsusiyyətləri ilə seçilir. Faciədə olduğu kimi, dramda da qəhrəmanla ətraf mühit arasında ciddi münaqişə və kəskin toqquşma baş verir. Amma faciədən fərqli olaraq, dramda qəhrəman bu münaqişə və toqquşma zamanı, bir qayda olaraq, həlak olmur, şər qüvvələrə mənəvi cəhətdən qalib gəlməklə bərabər, həm də sağ qalır. Faciədə isə kədərli, dəhşət doğurucu hadisələr ön plana keçir. Böyük ümidin, xoş arzunun məhv olması ilə nəticələnən pyeslər faciə adlanır. Faciənin baş qəhrəmanı, əsasən, yeni ideya, yeni həyat uğrunda mübarizə aparır. Bu mübarizədə baş qəhrəman kəskin müqavimətə rast gəlir. Qəhrəmanın arzusu ilə həmin arzunu həyata keçirmək imkanı arasında çox böyük ziddiyyət yaranır. Qarşılaşdığı çətinliklərə baxmayaraq, faciə qəhrəmanı öz əqidəsindən dönmür və çox vaxt bu yolda həlak olur. Faciədə qəhrəmanın fiziki ölümü onun mənəvi qələbəsi kimi mənalandırılır. Müsbət qəhrəman fiziki cəhətdən məhv olsa da, öz idealı uğrunda fədakar, güzəştsiz mübarizəsi ilə mənfi qüvvələrə mənəvi cəhətdən qalib gəlmiş olur. Zaman ötdükcə müsbət qəhrəmanın arzuları, ideyaları real həyatda gerçəkləşir və oxucu mənfi obraz və ya obrazların şər qüvvəni təmsil etdiyinə tam inanır. Belə ideyaların daşıyıcısı olan obrazın təsvir edildiyi əsərlər ümumbəşəri səciyyə daşıyan əsərlər kimi tanınır.

Azərbaycan ədəbiyyatı tarixində dram və faciə janrlarında yazılmış ilk əsərlər M.F.Axundzadənin “Hekayəti-xırs quldurbasan” dramı (1851) və Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” faciəsidir (1896). Şeir dili ilə yazılmış hər hansı bir əsər ədəbiyyatşünaslıqda nəzmlə yazılmış əsər kimi tanınmaqdadır. Ədəbiyyatımızda dramatik növün dram və faciə janrlarında nəzmlə yazılmış ilk əsərlər müəllifi isə qədim Naxçıvan diyarının bəşəriyyətə bəxş etdiyi filosof-şair Hüseyn Caviddir.

Hüseyn Cavid 30 ilə yaxın yaradıcılıq fəaliyyəti ilə Azərbaycan ədəbiyyatını həm məzmun, həm də janrca zənginləşdirmiş görkəmli şair-dramaturqlarımızdan biridir. Onun əsərləri ilə ədəbiyyatımızın mövzular aləmi xeyli vüsətlənmiş, dramaturgiyamıza həyati konfliktlər, dərin düşüncəli, həssas ürəkli, həyat eşqli parlaq xarakterlər gəlib. Nəzmlə qələmə alınmış “Ana”, “Şeyx Sənan” və “İblis” pyeslərilə Hüseyn Cavid Azərbaycan ədəbiyyatında mənzum dram və faciə janrlarının əsasını qoyub.

Hüseyn Cavid bütün yaradıcılığı boyu ictimai sifariş deyilən süni tələblərə məhəl qoymayan bir söz sənətkarı kimi daim qəlbinin diktəsilə qələm çalıb. O, bir qayda olaraq, öz yazıçı qənaətinə uyğun, insan qəlbini riqqətə gətirən mövzuları qələmə alıb, o zamanın sovet rəhbərliyini və quruluşunu tərif edən bircə dənə də olsun, şeir belə yazmayıb. Məhz əsərlərindəki ümumbəşəri ideyalarına və dövrün diktəsinə boyun əymədiyinə görə Hüseyn Cavid 1937-ci ildə həbs edilərək Uzaq Sibirə sürgün edilir. Böyük mütəfəkkir, şair, dramaturq Hüseyn Cavid 1941-ci ilin 5 dekabrında sürgündə vəfat edir. 1982-ci ildə ədibin nəşi xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük səyləri nəticəsində Uzaq Sibirdən gətirilərək doğma torpağında – Naxçıvanda dəfn olunur.

H.Cavid Azərbaycanda XX əsrin əvvəllərində meydana gələn, lakin qısa müddətdə ciddi yaradıcılıq uğurları ilə ədəbiyyatımızda mühüm ədəbi bir cərəyan olduğunu sübut edən romantizmin görkəmli nümayəndələrindən biri, dramaturgiyamızda isə bu cərəyanın ən parlaq siması olub. Hüseyn Cavidi ədəbiyyat tarixində ən çox məşhurlaşdıran və ona böyük şöhrət qazandıran dram əsərləridir. O, Azərbaycan romantik mənzum dramaturgiyasının görkəmli yaradıcısı və banisidir. “Gülçin” təxəllüsü ilə şeirlər yazmaqla bədii yaradıcılığa başlayan H.Cavid 1910-cu ilin əvvəllərində artıq “Ana” pyesini yazır. Beləliklə, ədəbiyyatımızda mənzum dram janrında ilk əsər doğulur. Ədibin dramaturgiya sahəsində ilk qələm təcrübəsi olmasına baxmayaraq, “Ana” mənzum dramında H.Cavid kəskin həyati konflikt əsasında canlı insan surətləri, Səlma kimi ana xarakteri yaratmağa müvəffəq olub. Mövzusu Dağıstan həyatından alınmış mənzum dramın qəhrəmanı Səlma ana obrazının timsalında mərdlik, mənəvi nəciblik, insani sədaqət duyğuları tərənnüm olunur. “Ana” dramı ilk dəfə 1913-cü ildə Tiflisdə çap edilib.

H.Cavid yaradıcılığının ilk mərhələsində məşhur “Şeyx Sənan” pyesini bitirir. 1914-cü ildə yazılmış bu əsərlə ədəbiyyatımızda mənzum faciə janrının əsası qoyulur.

Zaman-zaman bu əsərinə görə müəllifi allahsız adlandıranlar, əsəri dinsizliyi, ateizmi təbliğ edən əsər kimi “qiymətləndirənlər” də olub. Əsərin izlədiyi qayənin əsas ifadəçisi olan Şeyx Sənan qətiyyən allahsız deyil, ateist deyil. Xumarla qovuşduğu son səhnədə çıxılmaz vəziyyət yaranır və Şeyx Sənan “Ey böyük Yaradan!” deyə, Allaha müraciət edir. Beləliklə, aydın olur ki, Şeyx Sənan üçün insanın mənəvi dəyəri onun Yer üzərindəki dinlərin hansına qulluq etməsində deyil, təmiz qəlblə, saf əqidə ilə Tanrıya tapınmasındadır. Sənana, dolayısı ilə H.Cavidə görə qəlbində Allah nuru olan kəslər insanları dəyərləndirə və qiymətləndirə bilərlər.

Cavid dramaturgiyası mahiyyətcə ictimai ədalətsizliyə, feodal-patriarxal münasibətlərə, fanatizmə, dünyanı dönə-dönə yenidən parçalamaq, bölüşdürmək istəyən imperiyaların qan tökmək siyasətinə və müstəmləkəçiliyə qarşı, ümumiyyətlə, şərə qarşı qüvvətli etirazın bədii ifadəsidir. Bəşər tarixində şərə qarşı mübarizədə H.Cavid qədər cəsarətli olan ədib olmamışdır desək, yanılmarıq. Ədəbiyyat aləmində xüsusi maraq doğuran, bir sıra teatrlarda dəfələrlə tamaşaya qoyulan, ayrı-ayrı monoloqları neçə-neçə nəslin dilində əzbər olan “İblis” mənzum faciəsi (1918) bənzərsiz Cavid cəsarətinin əsl ifadəçisidir. İnsanın şüurlu varlıq kimi bu fani dünyadakı vəzifəsi, əxlaqi-mənəvi dəyərlərə zidd olan qəbahət və xəyanətlərin küll halında ifşa edilməsi baxımından “İblis”in Azərbaycan mənzum faciəsi tarixində tayı-bərabəri yoxdur. Bu əsər qələmə alındığı vaxt öz ideya-bədii keyfiyyəti etibarilə necə aktual idisə, üzərindən 97 ilə yaxın müddət keçməsinə baxmayaraq, indi də öz məna və əhəmiyyətini qoruyub saxlamaqdadır. Bu gün də bir zamanlar “İblis”də təsvir olunan həmin məkanlarda qanlar tökülür, günahsız qanlar bahasına zəiflərə hökm etmək niyyətindən əl çəkmirlər. H.Cavidə görə bütün bunlara səbəb iblis və ona uyan insanlardır:

*Dəryalara hökm etmədə tufan,*
*Səhraları sarsıtmada vulkan,*
*Sellər kimi axmaqda qızıl qan,*
*Canlar yaxar, evlər yıxar insan.*
*...İblis nədir? – Cümlə xəyanətlərə bais...*
*Ya hər kəsə xain olan insan nədir?*
*– İblis.*

“İblis” mənzum faciəsindəki İblisin məşhur monoloqu XX əsrin əvvəllərində olduğu kimi, XXI əsrin əvvəllərində də qan püskürən, od sovuran kinli rəhbərləri, var-dövlət düşkünü, min hiylə quran siyasiləri, məzhəb çıxaran xadimi-ədyanları təsvir və tənqid baxımından indi də aktualdır. Sanki 1918-ci ildə yazılmış monoloq XXI əsrin ikinci onilliyini yaşadığımız müasir dünyanın tarixi gerçəkliyidir. Əsərin ən maraqlı məqamlarından biri də odur ki, əsərdəki İblis obrazını, onun şər və xainliklərə bais əməllərini elə İblisin özü ifşa edir.

*Hüseyn Cavidin şeir yaradıcılığı həm də milli romantik şeirimizin ilk nümunələridir. Sonet, türkü və marş janrlarını da ədəbiyyatımıza ilk gətirən Naxçıvanda doğulub boya-başa çatan, ilk təhsilini Naxçıvanda alan, buradakı maarifçi-ədəbi mühitin böyük ədəbiyyata qazandırdığı Hüseyn Cavid olub.*

✍ **Səyyar MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin yanvar ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1768841 | 176884 | 177584 | 100,4 |
| 2. | Sədərək rayonu | 411120 | 41112 | 42566 | 103,5 |
| 3. | Şahbuz rayonu | 843579 | 84358 | 84608 | 100,3 |
| 4. | Şərur rayonu | 2965259 | 296526 | 297326 | 100,3 |
| 5. | Kəngərli rayonu | 1316312 | 131631 | 131931 | 100,2 |
| 6. | Culfa rayonu | 1743430 | 174343 | 174433 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 4104687 | 410469 | 410469 | 100,0 |
| 8. | Babək rayonu | 3324770 | 332477 | 332477 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11203994 | 1119798 | 1106791 | 98,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27681992** | **2767598** | **2758185** | **99,7** |

### Kəngərli Rayon Mərkəzi Xəstəxanası

*2015-ci il üçün kotirovka elan edir*

*1. Dərman ləvazimatlarının satın alınması.*

*2. Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 10 fevral 2015-ci il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 11 fevral 2015-ci il tarixdə saat $12^{00}$-da Kəngərli Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Hüseyn İbrahimov***
***Telefon: 548-01-25, ünvan: Kəngərli rayonunun Qıvraq qəsəbəsi***

### İtmişdir

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Məmmədova Rəna Məmməd qızının adına olan JN-1045[B] inventar nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonunun Qızıl Qışlaq kənd sakini Məmmədov Təmo Rüstəm oğlunun adına olan 98 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Vəliyeva Nazəndə Əsəd qızının adına 2001-ci ildə Bakı Dövlət Universiteti tərəfindən verilmiş A-089625 nömrəli diplom itdiyindən etibarsız sayılır.

### Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti

*muxtar respublikanın miqrasiya orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Miqrasiya orqanlarına qulluğa qəbul Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə”nin və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli 305 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Miqrasiya orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqə və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə”nin tələblərinə uyğun olaraq aparılır.

Muxtar respublika miqrasiya orqanlarında xidmətə qəbulla bağlı müsabiqəyə ali məktəbləri bitirən şəxslər buraxılırlar.

Müsabiqədə iştirak etmək istəyən şəxslər ***www.miqrasiya.nakhchivan.az*** internet saytına daxil olmaqla “miqrasiya orqanlarında xidmətə qəbul” bölməsində muxtar respublikanın miqrasiya orqanlarında işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə qeydiyyat bir ay müddətində – cari ilin fevral ayının 9-dan mart ayının 10-dək davam edəcək.

Elektron ərizə ilə müraciət edən şəxslər eyni zamanda Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin müsabiqə komissiyasına müvafiq sənədləri təqdim etməlidirlər.

Təqdim olunmuş sənədlər əsasında vətəndaşların müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən, fiziki və əqli qüsurlarına görə miqrasiya orqanlarında işləməyə qadir olmayan, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş çağırışyaşlı vətəndaşlar (qadınlar istisna olmaqla) müsabiqəyə buraxılmırlar.

Hər bir namizədin bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, miqrasiya orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə keçiriləcək müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Xarici dil bilən və kompüterdə işləmək bacarığı yüksək olan şəxslərə müsabiqənin müsahibə mərhələsində üstünlük veriləcək.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 91